İPƏK YOLU, No.2, 2025, səh.140-147
https://doi.org/10.30546/SI.2025.2.5.250

# HÜSEYN ABBASZADƏNİN HEKAYƏLƏRİNDƏ MÜHARİBƏ MÖVZUSU

**Jalə Məmmədova**

Bakı Slavyan Universiteti, Bakı, Azərbaycan
e-mail: memmedovajale2007@gmail.com

**Xülasə.** H. Abbaszadə yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatında əhəmiyyətli yer tutur. Yazıçı Böyük Vətən müharibəsinin iştirakçısı olmuşdur. Dəfələrlə yaralanmış, orden və medallarla təltif olunmuşdur. Müharibə mövzusu yazıçının yaradıcılığının ana xəttini təşkil edir. Məqalədə Hüseyn Abbaszadənin hekayələrində müharibə mövzusu təhlil edilmişdir.

**Açar sözlər:** Müharibə, ənənə, nəsr, ədəbi qəhrəman.

**THE THEME OF WAR IN HUSEYN ABBASZADEH'S STORIES**

**Jala Mammadova**
*Baku Slavic University, Baku, Azerbaijan*

**Abstract.** The works of Huseyn Abbaszade occupy a special place in the Azerbaijani literature of the 20th century. The writer was a participant in the Great Patriotic War. He was awarded orders and medals. The theme of war is the main line of the writer's work. The article analyzes the theme of war in the stories of Huseyn Abbaszade.
**Keywords:** War, tradition, prose, literary hero.

**ТЕМА ВОЙНЫ В РАССКАЗАХ ГУСЕЙНА АББАСЗАДЕ**

**Жаля Маммадова**
*Бакинский Славянский Университет, Баку, Азербайджан*

**Резюме.** Творчество Гусейна Аббасзаде занимает особое место в Азербайджанской литературе XX века. Писатель был участником Великой Отечественной войны. Он был награждён орденами и медалями. Тема войны составляет основную линию творчества писателя. В статье анализируется тема войны в рассказах Гусейна Аббасзаде.
**Ключевые слова:** Война, рассказ, проза, литературные герои.

## 1. Giriş

Hüseyn Abbaszadənin yaradıcılığı XX əsr Azərbaycan ədəbiyyatında əhəmiyyətli yer tutur. Yazıçı Böyük Vətən müharibəsinin fəal iştirakçısı olmuş, bir neçə dəfə yaralanmış, orden, medallarla təltif olunmuşdur. Ağır döyüşlərin birində yaralanmış, bir neçə ay hərbi xəstəxanada müalicə olunduqdan sonra tərxis olunaraq Bakıya qayıtmışdır. Müharibə illərində və müharibədən sonrakı dövrdə müxtəlif qəzet və jurnallarla əməkdaşlıq etmiş, hekayə, povestlərini çap etdirmişdir. Sonralar XX əsr Azərbaycan ədəbiyyatında müharibədən bəhs edən əsərləri ilə ədəbi ictimaiyyətin, tənqidçilərin diqqətini cəlb etmişdir. Yazıçı müharibə dəhşətlərini öz gözləri ilə görmüş, şahidi olduğu hadisələri, döyüş yoldaşlarının həlak olmalarını, müharibənin acı nəticələrini bədii əsərlərdə əks etdirməyə müvəffəq olmuşdur. “Onun müharibə illərindən bəhs edən hekayələrini oxuyun, nə qədər canlı həyat həqiqətləri olduğunu görəcəksiniz” [4, s.51]. Doğrudan da, hörmətli yazıçı Süleyman Rəhimovun fikirləri ilə razılaşmamaq çətindir.

## 2. Hüseyn Abbaszadənin hekayələrində müharibə mövzusu

Hüseyn Abbaszadə bədii yaradıcılığa müxtəlif mövzularda yazdığı kiçik hekayələrlə başlamışdır. "Köhnə məhəllədə", "Xeybər əminin gülləri", "Hündür hasar arxasında", "Rəfiqə", "Naxışlar", "Siqnal", "Toy, od, teleqram", "Fənərçi", "Qısa məzuniyyət", "Axşam şöbəsinin tələbəsi", "Siz kimsiniz?" və digər hekayələrdə qaldırılan problemlər bu gün də aktuallığını itirməmişdir. Yazıçının hekayələrində əks etdirilən problemlər, mövzular povest və romanlarda daha geniş şəkildə təsvir olunmuşdur. Bir faktı vurğulamaq lazımdır ki, Hüseyn Abbaszadənin əsərlərində konkret döyüş epizodları, səhnələri ilə bərabər, müharibənin səbəb olduğu fəlakətlərin, insan faciələrinin təsviri də əhəmiyyətli yer tutur.Yazıçının qənaətinə görə müharibə uzun müddət insanların şəxsi talelərində, davranışlarında, ictimai həyatda silinməz izlər buraxmışdır. "Hüseyn Abbaszadə Azərbaycan ədəbiyyatına, nəsrimizə öz mövzusu, öz qəhrəmanları ilə bir yerdə gəlib. Bu mövzular, bu qəhrəmanlar göydən, buluddan alınmayıb, elə yazıçının həyatda gördüyü, rastlaşdığı adamlardır. Hələ çox gənc ikən Böyük Vətən müharibəsinin iştirakçısı olan Hüseyn döyüşlərdə olub, səngərlərdə yatıb, çətin, ağır yollardan keçib" [5, s.3]. Ona görə də yazıçının hekayələri həyatiliyi, reallığı ilə seçilir. Bu baxımdan "Rəfiqə" hekayəsində təsvir olunanlar yuxarıda deyilənlərə əyani sübutdur. Müharibənin insanlara vurduğu ağır, mənəvi yaralar, sarsıntılar illər sonra da öz təsirini göstərir. Sanki müharibə qəflətən başlandığı kimi insanların sakit, dinc, xoşbəxt həyatına da gözlənilmədən, qəflətən daxil olur. Rəfiqə ilə həyat yoldaşı Veysəl bir-birlərini sevirdilər. Rəfiqə həyatda nələr yaşamamışdı. Tale onun üzünə nadir hallarda gülmüşdü. Valideynləri Rəfiqənin yadına gəlmirdi. O, Şamaxıda yetimlər evində böyümüşdü. Qırxıncı ildə orta məktəbi bitirib Bakıya gəlmiş, pedaqoji instituta daxil olmuşdu. Rəfiqə Şamillə institutda tanış olmuş, görüşmüş, bu şən, gülərüzlü oğlanı sevmiş və onlar evlənmişdilər. Rəfiqə başqa qızlar kimi ata evindən yox, institutun ümumi yataqxanasından gəlin getmişdi. Bu müharibə başlamamışdan bir neçə ay əvvəl olmuşdu.." [1, s.349]. Ancaq sən saydığını say, gör fələk nə sayır. Nədənsə, yetimin, kasıbın ağzı çörəyə çatanda, başı daşa dəyir. Başqa sözlə desək, həyatda düzgün, mərd, namuslu insanların, ümumiyyətlə, bəxtləri gətirmir. Bu baxımdan Rəfiqənin yaşadığı həyat, tale istisna deyildir. Həyatda Rəfiqə üçün xoşbəxt anlar Şamillə birgə yaşadığı üç aydan ibarət olmuşdu. Müharibə başlananda Şamil könüllü olaraq cəbhəyə yollanmış, mərdliklə, igidliklə vuruşmuşdu. Şimali Qafqazda gedən döyüşlərdə ağır yaralanmış, hərbi xəstəxanada vəfat etmiş, üç əsgərlə birlikdə qardaşlıq məzarında dəfn olunmuşdu. Bu haqda Bakıya - Şamilin ailə üzvlərinə məlumat verilmişdi. Onlar Şamilin harada dəfn olunduğunu yaxşı bilirdilər. "Rəfiqə on doqquz yaşında dul qalmış, qayınanası ilə bir yerdə yaşamışdı. Dərd onları bir-birinə möhkəm bağlamışdı. Rəfiqə qərara gəlmişdi ki, heç zaman Səfurə xalanı tək qoymasın. Şamildən sonra bir də ərə getməsin. Tanımayan adamlar belə hesab edirdilər ki, onlar ana-baladılar" [1, s.349]. İllər çox tez gəlib keçdi. Rəfiqə meylini dərs dediyi uşaqlara salmışdı. Uşaqların və müəllimlərin dərin hörmətini qazanmışdı. Ona elçi düçənlərin sayı-hesabı yox idi. Rəfiqə ərə getməyi, ailə qurmağı ağlına belə gətirmirdi. Qayınanası Səfurə xala bu xüsusda dəfələrlə təkid etmişdi. Rəfiqəyə elə gəlirdi ki, ailə qursa, ərə getsə Şamilin xatirəsinə, ruhuna xəyanət edəcəkdir. Rəfiqə indiki həyat yoldaşı Veysəllə tanış olduğu çiskinli, yağışlı, buludlu

günü yaxşı xatırlayırdı. Həmin gün məktəbdən çıxıb evə tələsirdi. Küçədə Veysələ rast gəldi. Saymazyana onun yanından ötüb keçmək istəyirdi. Son zamanlar Veysəl tez-tez onun yolunun üstünə çıxırdı. Rəfiqə özü də hiss edirdi ki, Veysələ qarşı biganə deyildir. Rəfiqə Veysəllə bir neçə ay bundan əvvəl müəllim yoldaşının ad günündə tanış olmuşdu. Hamı Veysəli təriflәyirdi. Rəfiqə Veysəlin müxtəlif məcmuələrdə çıxan məqalələrini oxumuşdu. "Veysəl Rəfiqənin xoşuna gəlirdi. Bir kişi olaraq Veysəldə qadınları özünə cəlb edəcək gözəl cəhətlər az deyildi. Onun uca boyu, xeyirxahlıq andıran sifəti var idi. Həmişə zövq ilə geyinirdi... Özünü cəmiyyətdə aparmasına nöqsan tutmaq çətin idi. Harada, hansı sözü necə deməyi, özündən böyük və özündən kiçiklər ilə necə rəftar etməyi bacarırdı. Veysəl də dul idi" [1, s.350]. Son zamanlar Rəfiqə özüylə bacara bilmirdi. Uzaqdan-uzağa da olsa Veysəli görməyə can atırdı. Hər vasitə ilə də ailə qurmaq fikrini özündən uzaqlaşdırmağa çalışırdı. Ancaq bacarmırdı. Rəfiqəyə elə gəlirdi ki, Şamilin ruhuna xəyanət edir. Qayınanası Səfurə xalanı da tək qoymaq istəmirdi. Son zamanlar Səfurə xala özünü pis hiss edirdi, tez-tez xəstələnirdi. Rəfiqə dərin tərəddüd içərisində idi. "Rəfiqə Veysəllə rastlaşandan sonra özü də hiss etmədən geyiminə fikir verməyə, yaxşı görünməyə çalışırdı. Bu iyirmi ilin ərzində Rəfiqəyə ailə həyatı qurmağı təklif eləyənlərdən heç biri ona Veysəl kimi gözəl təsir bağışlamamışdı. O, qəlbində sevgi qığılcımlarının baş qaldırdığını duyunca özünü qınamağa başladı" [1, s.350-351]. Rəfiqə sonuncu dəfə Veysəldən "hə", "yox" cavabı vermək üçün bir gün möhlət istədi. Evə gələndə üzünü qayınanasından gizlədirdi. Sanki qəbahət iş tutmuşdu.

Səfurə xala dünyagörmüş, arif qadın idi. Rəfiqənin üzünə baxanda başa düşdü ki, gəlinin halı özündə deyildir. Rəfiqə bu evə ayaq basandan, gəlin köçəndən bəri hisslərini, duyğularını gizlədə bilməmişdi. Rəfiqə başının ağrıdığını bəhanə gətirərək qonşu otağa keçmək istədi. Yuxarıda göstərdiyimiz kimi Rəfiqə və qayınanası təxminən iyirmi il ərzində ana-bala kimi yola getmişdilər. Bir-birlərindən heç nəyi gizlətməmişdilər. Səfurə xala televizoru söndürüb, özü gəlinin otağına keçdi. Gəlini əlləri ilə üzünü qapamışdı. Həqiqəti gizlətməyə çalışırdı. Ancaq bacarmırdı. Rəfiqə Veysəllə olan münasibətlərini qayınanasına bildirdi. Səfurə xanım həqiqətən məyus olmuşdu, seçim qarşısında qalmışdı. Rəfiqəyə doğma qızı kimi alışmışdı. Digər tərəfdən Rəfiqənin yolunu kəsmək istəmirdi. Nəyə görə ömrünü-gününü çürütməlidir? Bundan Şamilə bir xeyir dəyəcəkmi? Səfurə ürəyindəkilərin hamısını gəlininə söylədi. Onunla fəxr etdiyini bir daha vurğuladı. Gəlin-qayınana həmin axşam xeyli söhbət etdilər. Rəfiqə qayınanasının təkidindən sonra Veysələ ərə getməyə razı oldu. Ancaq toy məclisinin keçirilməsinə razılıq vermədi. Rəfiqə Veysəlin yeni binada aldığı üç otaqlı mənzilə köçdü. İki ildən sonra Səfurə xanım vəfat etdi. Rəfiqə Veysəllə yaxşı dolanırdı. Bir-birlərini sözsüz başa düşürdülər... Ancaq müharibənin vurduğu sağalmaz yaralar, dəhşətli nəticələr özünü göstərməkdə davam edirdi. Təxminən 30 ildən artıq vaxt keçməsinə rəğmən... Rəfiqə həmişə Şamilin xatirəsini əziz tuturdu. Rəfiqə Veysəli yaxşı tanıdığına əmin idi. Şamillə bağlı olan məsələlərdə heç bir problemin olmayacağına inanırdı. Çox keçmədi ki, Rəfiqə Veysələ bəslədiyi ümidlərin yalnış olduğuna əmin oldu. Şamil cavan yaşlarında həyata əlvida demişdi.

Döyüşdə ağır yaralanmış, qəhrəmancasına həlak olmuşdu. Müharibə Şamil kimi minlərin, milyonların arzusunu gözündə qoymuşdu. Onlar minlərlə, milyonlarla veysəllərin azad, firavan yaşamaları, xoşbəxt olmaları, torpağın üstündə sərbəst gəzmələri üçün canlarından keçmişdilər. Axı, həyat insana bir dəfə verilir. Bütün günahları müharibənin üstünə yıxmaq düzgün deyildir. Digər tərəfdən müharibəni başladanlar da insanlardır. Minləri, milyonları məhv edən, şəhərləri, kəndləri dağıdan, uşaqları atasız, anaları oğulsuz, qadınları ərsiz qoyanlar da insanlardır! Əgər onlara insan demək mümkünsə! Ona görə şamillərin xatirəsinin əziz tutulması təkcə Rəfiqənin deyil, hamının borcudur, ən ümdə vəzifəsidir.. Şamil haqqında göndərilən son məktub onun canını fəda etdiyi diyardan - Krasnodardan gəlmişdi. Kənd sakinləri şəhid, qardaşlıq məzarlığında dəfn olunan döyüşçülərin xatirəsini əbədiləşdirmək üçün abidə ucaltmışdılar. Məktubda deyilirdi ki, kənd sakinləri həlak olan əsgərlərin qohumlarının gəlişinə ürəkdən sevinəcək və onları təntənəli şəkildə qarşılayacaqlar. Rəfiqə abidənin açılışında iştirak etməyi qərara almışdı. Fikrini Veysələ bildirəndə xeyli təəccübləndi. Veysəl Rəfiqənin getməsinə qəti etiraz edirdi. Rəfiqə Veysəli yola gətirə biləcəyinə inanırdı. "Veysəl bica yerə danışmağı sevmir. Yəqin ona "yer eləyən budur ki, mən hələ də olub keçənləri yaddan çıxarmamışam. Yox, bəlkə də o, heç bu barədə fikirləşmir... Mən bu məsələdə Veysələ qulaq asmamaqda, gözəl ailə münasibətlərimizi zərbə altına qoymaqda nə qədər haqlıyam?! Əgər ailə ikinci dəfə dağılarsa, onu təzədən qurmaq mümkün deyil" [1, s.358-359]. Rəfiqə qəti qərara gələ bilmirdi. Neçə illərdən sonra qurduğu ailəsini dağıtmaq istəmirdi. Digər tərəfdən Şamilin qarşısındakı son borcunu yerinə yetirmək arzusu, istəyi ona rahatlıq vermirdi. Qapının döyülməsi Rəfiqəni dərin düşüncələrdən ayırdı. Veysəl qonaqlara qulluq etməyi ondan xahiş etdi və hansı qərara gəldiyini təkrar soruşdu. Həyat yoldaşından abidənin açılışına getməyəcəyi cavabını eşidib xeyli sakitləşdi.Veysəl minnətdarlıq əlaməti olaraq Rəfiqənin başını əlləri arasına alaraq öpdü. Qonaqlara özü qulluq etdi. Təki Rəfiqə narazı qalmasın, fikrini dəyişdirməsin... Rəfiqə gecəni yata bilmədi. Birtəhər yuxuya getdi. Səhər tezdən küçəni sulayanların və qonşuların səs-küyünə oyandı. Saat altının yarısı idi. Rəfiqə dünəndən bəri xeyli düşünmüş və qəti qərara gəlmişdi. Şeylərini çamadana yığıb səfərə hazırlaşdı. Hələ də Veysəli yola gətirə biləcəyinə inanırdı. Veysəl Rəfiqənin hazırlaşdığını görmüşdü. Nə üçün qərarını dəyişdiyini kobud şəkildə soruşdu. Rəfiqə getməsinin səbəblərini aydınlaşdırmağa başladı. Bacardığı qədər təmkinini saxlayırdı. Şamilin yaxın qohumu yox idi. Rəfiqə Veysələ başa salmağa çalışırdı ki, onun abidənin açılışına getməməsi ən azı etibarsızlıqdır. Veysəl müharibədə həlak olmuş qəhrəmanların xatirəsinə ucaldılmış abidənin açılışını "formal, dəyəri, əhəmiyyəti olmayan mərasim" adlandırdı. Daha irəli gedərək bildirdi ki, abidənin açılışına müasir insanın gözü ilə baxmaq lazımdır. Daşların qarşısında bir neçə dəqiqə dayanmaqdan ötrü ora getməyə dəyərmi? Həqiqətən Rəfiqə Veysəldən bu cavabı gözləmirdi. Görəsən, insanlarda bu qədər unutqanlıq, laqeyidlik, biganəlik haradandır? Əslində abidə həyatını Vətən, insanlar uğrunda qurban verənlərdən daha çox sağ qalanlar, yaşayanlar üçündür! Minlərlə, milyonlarla şamillər kimlərin, daha dəqiq desək, Veysəl kimilərin uğrunda canlarından keçdiklərini bir an belə düşünməmişdilər. Onlar tərəddüd etmədən canlarını fəda etmişdilər. Rəfiqə həqiqətən eşitdiklərindən dəhşətə gəlirdi. Rəfiqənin səsi titrəyirdi". Düzdü, dirilər üçündür. Onları yada

salmaqdan, insanlıq borclarını unutmamaqdan ötrü... Yadlar iyirmi iki ildən sonra Şamili xatırlayıb, məzarının üstündə abidə tikdiyi halda, mən onu unuda bilərəmmi? Veysəl, başa düş, elə mərasimlər vardır ki, teleqram vurmaqla iş bitmir. Adam özü ora getməlidir. Nahaq yerə inad göstərmə" [1, s.355]. Veysəl Rəfiqəni nələrdə ittiham etmədi? Rəfiqə qulaqlarına inana bilmirdi. Əlləri əsdiyinə görə çamadanı bağlaya bilmirdi. Veysəl Rəfiqənin yolunu kəsib, son dəfə xəbardarlıq etdi: "Ordan bu evə qayıtma, eşidirsən. Qayıtma. Bizimki daha qurtardı" [1, s.356]. Aşağıdan Rəfiqənin cavabı əvəzinə dikdaban ayaqqabılarının taqqıltısının eşidilməsi rəmzi məna daşıyır. Rəfiqə iyirmi iki ildən sonra tapdığı səadəti, xoşbəxtliyi asanlıqla itirmək istəmirdi. Ancaq təzədən Veysəl kimi vicdanını itirmiş insanların yanına qayıtmaq Rəfiqə üçün ölümdən də betərdi...

Fikrimcə, Rəfiqə qayıtmayacaqdı... Hüseyn Abbaszadənin Böyük Vətən müharibəsindən bəhs edən digər hekayəsi "Naxışlar" adlanır. İlk baxışdan hekayənin adı müharibə illərinin sərtliyini, faciəviliyini qətiyyən əks etdirmirdi. Lakin bu ilk baxışdan belədir. Hüseyn Abbaszadənin müharibədə olması, onun əsərlərinin xüsusilə də hekayələrinin ideya-məzmun xüsusiyyətlərinə, mövzu müxtəlifliyinə öz təsirini göstərmişdir. Yazıçının hekayələri realist üslubda yazılmışdır. Sanki bütün hadisələr gözlərimiz qarşısında baş verir. Cəbhədə müəllifə bağışlanan alışqanın qəribə tarixcəsi vardı. Onu qiymətli yadigar kimi qoruyub saxlayırdı. Alışqanı cəbhə yoldaşı Mahmud Fərəcli bağışlamışdı. "Fərəcli batareyamızın ən yaşlı döyüşçüsü idi. Biz heç zaman onu familiyası ilə çağırmırdıq. Hissəmizin adamları, başqa millətlərdən olan əsgər və zabitlər də ona Azərbaycan dilində "Mahmud dayı", ya da "usta"deyirdilər. Mahmud dayının yaşı əllini haqlamışdı". Vətəni Şəkidə üç yaşlı bir nəvəsi də vardı. Özü də ata-babadan nəqqaş olmuşdular. Mahmud dayı nəsildən-nəslə keçən bu zərif sənətin mahir ustası idi. O, sevimli peşəsindən ayrıla bilmirdi. Orduya səfərbərliyə alınanda nəqqaşlıq alətlərini də özü ilə bərabər gətirmişdi. Mahmud dayı onları əşya torbasına doldurmuşdu. Hara gedirdisə, özü ilə aparırdı" [1, s.357]. Vaxt olan kimi Mahmud dayı sakit guşəyə çəkilir, müxtəlif dəmir parçalarına gözəl naxışlar vururdu. Batareyada elə bir adam tapılmazdı ki, Mahmud dayı düzəltdiklərindən ona hədiyyə etməsin. Mahmud dayı həm də yaxşı vuruşurdu. İki orden, üç medal almışdı. Mahmud dayı bir dəfə top nişangahı cihazının üstünə gözəl naxışlar çəkmişdi. Buna görə də silahla yarıtmaz rəftarına görə batareya komandiri kapitan Sedovdan töhmət almışdı. Mahmud dayı topun üstünə naxışlar, şəkillər çəkməyin qadağan olunduğunu bilmədiyini etiraf etdi. Bu hadisədən sonra Mahmud dayı məşğələlərdə xüsusi səy göstərirdi. Yaşca hamıdan böyük olsa da, gözləri yaxşı görürdü, qolları möhkəm idi. Əməksevərliyi ilə çoxlarından fərqlənirdi. Cəbhədə isə çətin, ağır əməyə qatlaşan adamlara böyük ehtiyac vardı. Ön xəttə gələndə Mahmud dayının xidmətləri komandirlərin nəzər-diqqətindən yayınmadı. Mahmud dayıya töhmət elan etmiş batareya komandiri kapitan Sedovun sevimlisinə çevrilmiş və hətta onun tərəfindən mükafatlandırılmışdı. Döyüşlər sakitləşəndə Mahmud dayı komandirdən icazə alıb şəhərə gedir və qotik üslubda tikilmiş binalara tamaşa edir, nümunələr götürür, qeydlər aparırdı. Yəqin ki, gördüklərini Vətənində

tətbiq edəcəkdi... 1945-ci ilin aprelində Berlin uğrunda gedən şiddətli döyüşlərdə almanlar qəflətən əks-hücuma keçdilər. Çox keçmədi ki, onlar geri oturduldu. Monastıra oxşayan binadan açılan atəş nəticəsində Mahmud dayı ölümcül yaralandı. Müharibədə, həqiqətən, ölüm gözlə qaş arasındadır. Qismətə, taleyə, alın yazısına, həqiqətən, təccüblənməmək olmur. Mahmud dayı döyüş azacıq sakitləşən kimi komandirdən icazə alıb, qədim binaya baxmağa getmişdi. Döyüşdən sonra binada gizlənmiş faşistlərin açdıqları atəş nəticəsində Mahmud dayı həlak olmuşdu. Batareya komandiri kapitan Sedov Mahmud dayının çəkdiyi şəkillərin, vurduğu naxışların hamısını toplayıb səhra poçtu vasitəsi ilə Şəkiyə - ailəsinə göndərməyi tapşırdı. Batareyanı Mahmud dayısız təsəvvür etmək çox çətin idi. Sanki naxışlar Mahmud dayı ilə bağlı xatirələri əbədi olaraq yaşadırdı... Mahmud dayının vurduğu naxışlar arasında əl boyda bürünc lövhə tapıldı. Lövhənin ortasında sərv ağacının altında ürkək baxışlı bala bir ceyran təsvir olunmuşdu. Həm də lövhə zərif naxışlarla bəzədilmişdi. Arxasında isə bu sözlər yazılmışdı. “Volodya Bayarova anadan olma günündə Mahmud dayıdan yadigar”. Volodya Bayarov batareyada “alay oğlu” vəzifəsini yerinə yetirirdi. Volodyanın 14 yaşı vardı. Valideyinləri Belarusiyada alman faşistləri tərəfindən öldürülmüşdü. Döyüşçülər Belarusiyada olarkən starşina kapitan Sedovdan icazə alaraq onu batareyaya gətirmiş və özünə köməkçi eləmişdi. Bayarov qısa müddətdə hamının sevimlisinə çevrilmişdi. Aprel ayının 24-də Volodyanın ad günü olacaqdı. Mahmud dayı Volodyanın ad gününə xüsusi hədiyyə hazırlamış, “yadigar” sözünü və tarix yazmağa macal tapmamışdı. Görünür, hədiyyəni Bayarova təqdim etmək Mahmud dayıya qismət deyilmiş... Hədiyyəni digər azərbaycanlı döyüşçü Bayarova təqdim etdi. Bürünc lövhəyə diqqətlə baxan Bayarov hönkürtüsünü saxlaya bilmədi...

Tezliklə Almaniya üzərində qələbə çalındı... Müharibə sona yetdi. Döyüşçülər yavaş-yavaş tərxis olunurdular. Moskvaya, Qafqaza, Kiyevə, Uzaq Şərqə təntənəli şəkildə yola salınırdılar. Müharibəni qələbə ilə başa vurmuş döyüşçülərin hamısında Mahmud dayının qızıl əllərindən çıxmış, naxışlı alışqan, müçdük, lövhə vardı. Vaqonda Mahmud dayının yeri görünürdü. Zərif naxışlarda Mahmud dayının dəst-xətti aydın şəkildə hiss olunurdu. Deməli, Mahmud dayı qəlblərdə, könüllərdə əbədi olaraq yaşayacaqdı...

Müharibədə insanın, döyüşçülərin yaşaması, ölümü təsadüflərdən daha çox asılıdır desək, səhv etmərik. Döyüşlər zamanı, bəzən də sakitlikdə təhlükənin irəlidən, arxadan, sağdan, soldan gələ biləcəyini müəyyənləşdirmək çox çətindir. Hüseyn Abbaszadənin “Siqnal” hekayəsində məhz yuxarıda göstərilən hadisələr, məqamlar diqqət mərkəzində olmuşdur. Üçtonluq maşında iki nəfər əyləşmişdi - biri serjant, o biri starşina. Onlar birləşmənin silah anbarından - arxa cəbhədən ön xəttə silah-mərmi daşıyırdılar. Ön xətdə şiddətli döyüşlər gedirdi. Mərmiləri vaxtında çatdırmaq lazım idi. Maşın torpaq yolda çətinliklə hərəkət edirdi. Əgər təkərdə nasazlıq olmasaydı, çoxdan silahı çatdırmışdılar...

Qəflətən buludların arasından alman təyyarəsi göründü. Atəş açıldı. Starşina son sözünü deyə bilmədi. Yoldaşının ölümü elə qəfil və sürətli oldu ki, Rüstəm bir müddət mat-mat baxıb starşinanın hərəkətə gəlməsini gözlədi. “Doğrudanmı o keçinib?! Axı...” Rüstəm gözünə inanmadı. Əlini onun çiyninə qoyub silkələdi və yavaşca harayladı: “Mitya”. Starşina dəbərmədi. O, Vanini bir də tərpədib sələdi. “Mitya, niyə dillənmirsən?!” [1, s.365]. Rüstəm

əmin oldu ki, Mitya həlak olmuşdur. Ancaq alman təyyarəsindən açılan atəş mərmilərə toxunmamışdı. Rüstəm əvvəlcə düşündü ki, maşını yolda saxlayıb gizlənsin. Dərhal fikrini dəyişdi. Ön cəbhədəki döyüşçülər mərmi gözləyirdilər. Rüstəm motoru yenidən işə saldı. Motorun səsindən alman hərbi təyyarəsinin yaxınlaşdığını hiss etmədi. Alman təyyarəsi aşağı enmiş və maşını yandırıcı güllələrlə atəşə tutmuşdu. Partlayış dalğası Rüstəmi bir qədər kənara atmışdı. Rüstəm gözünü açanda özünü şam ağaclarının üstündə gördü. Bir qolu sınmış, paltarları qana bulaşmışdı. Rüstəm bir-təhər şam ağaclarının budaqları üzərindən yerə düşə bildi. Nəyin bahasına olursa-olsun düşmənin açdığı atəşin yandıra bilmədiyi mərmiləri xilas etmək lazım idi. Taxta parçaları bir-birinin ardınca yanırdı. Maşın odlanıb büsbütün yana bilərdi. Rüstəm özündə güc tapıb birtəhər kuzova qalxdı. Quru taxtaları qoparıb atmağa başladı. Yaralanmış qolu və çiyni indi bayaqkından daha artıq incidirdi. Daha havadan təyyarə motorlarının uğultusu gəlmirdi. Çox uzaqlardan, ön xəttdən atəş səsləri eşidilirdi. Rüstəmin vəziyyəti getdikcə ağırlaşırdı. Qolundakı ağrılar şiddətlənirdi. Rüstəm tamamilə gücdən düşmüşdü. Yeganə çıxış yolu sürünə-sürünə gedib beton yola çıxmaq idi. Rüstəm beton yoluna çıxanda vəziyyəti xeyli ağırlaşmışdı. Çətinliklə nəfəs alırdı. Qeyri-ixtiyari olaraq Bakını, sonuncu dəfə məktub aldığı qızı xatırladı. Necə də yaşamaq, müharibədən sonra qalib döyüşçü kimi Vətənə dönmək istəyirdi. Tərslikdən yolda maşın görünmürdü. Rüstəm alnını siqnala dirəyib ətrafa səs saldı. Rüstəm aldığı yaralardan, çoxlu qan itirmədən həlak olmuşdu. Siqnal səslənir, insanları köməyə çağırırdı. Siqnal aramsız səslənirdi. “Lakin bu səs kabinadakı iki əsgərin əbədi yuxusuna mane olmurdu” [1, s.372]. Həqiqətən, təsirli səhnələrdir. Danılmaz həqiqətdir ki, müharibədə asan qələbə olmur. Qələbə sıravi döyüşçülərin, yüksək rütbəli komandirlərin qanı bahasına qazanılır. Hüseyn Abbaszadənin müharibədən bəhs edən hekayələri yuxarıda deyilənlərə ən bariz nümunədir.

**Nəticə.** Hüseyn Abbaszadə XX əsr Azərbaycan ədəbiyyatında “hərbi nəsr”in banilərindən biri olmuşdur. Bu da təsadüfi deyildir. Yazıçı Böyük Vətən müharibəsinin iştirakçısı olmuş, müxtəlif cəbhələrdə fədakarlıqla vuruşmuşdur. 50-ci illərin əvvəllərində ədəbiyyata gəlmişdir. Bədii yaradıcılığa müharibədən bəhs edən kiçik həcmli hekayələrlə başlamışdır. Yazıçının 60-70-ci illərdə yazdığı hekayələrdə, povestlərdə və “General” romanında qanlı-qadalı müharibənin təsviri əhəmiyyətli yer tutur. Bəzən də müharibədə odun, alovun içindən keçmiş ədəbi qəhrəmanlar dinc dövrdə, əmək cəbhəsində sınağa çəkilirlər. Sanki müharibə onları daban-dabana izləyir, “təqib edir”. Yazıçının qənaətinə görə, müharibənin vurduğu yaralar uzun müddət özünü göstərməkdə davam edir. Müharibə iştirakçılarının sonrakı talelərində, məişətində, gündəlik həyatlarında silinməz izlər buraxır. Hüseyn Abbaszadənin ədəbi qəhrəmanları həyatidirlər, realdırlar, koloritlidirlər. Fikrimizcə, uzun müddət keçsə də, yazıçının əsərlərinin oxunaqlı və aktual olmasının əsas səbəbi yuxarıda göstərilənlərdir.

**Ədəbiyyat**

1. Abbaszadə H. (1977), Seçilmiş Əsərləri, II cilddə, 2-ci cild. Bakı: Azərnəşr, 410.
2. Həbibbəyli İ. (2022), Müharibə və ədəbiyyat. Ədəbiyyat qəzeti, 2-3.
3. Nəbiyev B. (1977), Azərbaycan Ədəbiyyatı və Böyük Vətən Müharibəsi İllərində. Bakı: Elm, 329.
4. Rəhimov S. (1980), Generalla yeni görüş. Azərbaycan Jurnalı, No.7, 51.
5. Yusifli V. (2022), Unuda bilmərik Hüseyn Abbaszadəni. Ədəbiyyat qəzeti, 3.